# Azərbaycanın çövkən millisi komandamıza daha bir qızıl medal qazandırdı











Oktyabrın 7-də - III MDB Oyunlarının 12-ci günündə 4 idman növü üzrə yarışlar keçirilib. Şəki Şəhər Stadionunda çövkən üzrə qızıl medal uğrunda matçda Azərbaycan və Özbəkistan milliləri qarşılaşıblar. Final görüşündə Azərbaycan komandası qalib gələrək (3:0) III MDB Oyunlarının qalibi olub.

Üçüncü yer uğrunda görüşdə isə Qırğızıstan yığması Qazaxıstana qalib gələrək (2:0) turnirin bürünc medalına sahib çıxıb. Bununla da çövkən yarışlarına yekun vurulub.

Azərbaycanın çövkən yığmasının baş məşqçisi Namiq Orucov jurnalistlərə açıqlamasında deyib: "İlk dəfədir MDB Oyunlarına qatılmışdıq. Yarış yüksək səviyyədə keçirildi. Təşkilatçılara minnətdarlığımı bildirirəm. Bu nailiyyət Azərbaycan atçılığı üçün çox yüksək nəticədir. Çox şadıq ki, 50-yə yaxın ölkə Beynəlxalq Çövkən Federasiyasına üzv olub. Növbəti illərdə komandaların sayı arta bilər".

Çövkən millisinin üzvü Vahid Məmmədov finalda qazandıqları qələbəni Azərbaycan Ordusuna həsr etdikərini bildirib: "Özbəkistanla görüş gərgin keçdi. Finala həm özümüzü, həm də atlarımızı yaxşı hazırlamışdıq. Ona görə də qələbə qazandıq. Qələbəmizi şanlı Azərbaycan Ordusuna həsr edirik".

Özbəkistan Çövkən Federasiyasının baş katibi Mahmud Maxomiç III MDB Oyunlarının yüksək səviyyədə təşkilinə görə Azərbaycana minnətdarlığını bildirib və yığmanın nəticəsi barədə deyib: "III MDB Oyunlarını təşkil edən Azərbaycan rəhbərliyinə minnətdarlığımızı bildiririk. Atlar, həmçinin idmançılar üçün yüksək şərait yaradılmışdı. Qazaxıstan və Qırğızıstan komandaları da güclüdür. Finalda qarşılaşdığımız Azərbaycan yığması yaxşı oynadı və qələbə qazandı". Şəki Olimpiya İdman Kompleksində isə bədii gimnastika yarışları davam edib. Azərbaycanın iki bədii gimnastı III MDB Oyunlarında finala vəsiqə qazanıb. Milli komandamızın üzvü Şəms Ağahüseynova lentlərlə çıxışda adını finala yazdırıb. Fidan Qurbanlı isə gürzlərlə çıxışa görə finala adlayıb. Azərbaycanın bədii gimnastı III MDB Oyunlarında gümüş medal qazanıb - Azadə Atakişiyeva çoxnövçülükdə ikinci yeri tutub. Bədii gimnastika üzrə komandamız isə (Nur Sadıqova, Şəms Ağahüseynova, Fidan Qurbanlı və Azadə Atakişiyeva) üçüncü yerə çıxaraq bürünc medala sahib olub. Bədii gimnastika yarışlarına bu gün yekun vurulacaq.

Gəncə İdman Sarayında qılıncoynatma yarışlarının qalibləri müəyyənləşib. Şpaqa növü üzrə oğlanlardan ibarət Azərbaycan millisi final görüşünü keçirib. Komandamız həlledici qarşılaşmada Rusiya seçməsi ilə üz-üzə gəlib və 35:45 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənib.

"Yarış maraqlı idi. Final görüşü bir az çətin oldu. Əlimizdən gələni etdik, amma qızıl medal qazana bilmədik". Bunu jurnalistlərə açıqlamasında şpaqa növü üzrə qılıncoynatma millimizin üzvü Emin Səfərbəyov deyib: "Bu yarışlar idmançılarımız üçün yaxşı təcrübə oldu. Üzərimizdə daha yaxşı işləməliyik. Komanda yoldaşlarımla birgə hədəfimiz növbəti yarışlarda böyük uğurlara nail olmaq, qızıl medala sahib çıxmaqdır".

Qılıncoynatmanın sablya növü üzrə qızlardan ibarət komandamız finalda Rusiya yığmasına 35:45 hesabı ilə uduzub və yarışı ikinci yerdə bitirib.

Gəncə İdman Kompleksində təşkil olunan yunan-Roma güləşi üzrə yarışlarda Azərbaycanın 6 təmsilçisi fəxri kürsüyə yüksəlib. Bunlardan Elşad Abbasov (51 kiloqram), Əli Nəzərov (60 kiloqram) və İslam Sultanov (71 kiloqram) qızıl, Yusif Mirzəyev (48 kiloqram) və Nicat Yeylaqaliyev (80 kiloqram) gümüş, Hikmət Haqverdiyev (55 kiloqram) isə bürünc mükafata sahib çıxıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***
***Naftalan-Şəki-Naftalan***

Azərbaycan.- 2025.-8 oktyabr (№ 216).- S.12.